Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Əlifbadan həyata doğru

**"Əlifbadan həyata doğru" Əlifba bayramı münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2017**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

"Əlifbadan həyata doğru" metodik vəsait / tərt.ed. A.Əliyeva; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-41 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Tərtibçidən

*Çeşmələrin duruluğu*
*Dağdan keçər, daşdan keçər.*
*Böyük arzuya gedən yol*
*Kiçik-kiçik işdən keçir.*

Həyat mübarizə meydanıdır. Mənəvi-fiziki sağlamlıq qələbənin bir təməlidirsə, əqli kamillik əsas rəhnidir. Bu gün ailənin, məktəbin və cəmiyyətin başlıca məramı məhz millətə, dövlətə faydalı, intelektual, fiziki və əqli cəhətdən sağlam vətəndaş yetişdirməkdədir. Dövlətimizin yürütdüyü siyasət də məhz bu məramın dolğun şəkildə gerçəkləşməsinə real təminatıdır. Uşaqlar sevinc, xoşbəxtlik rəmzidir. Onların hər insan və ailə üçün nə demək olduğunu sözün qüdrəti ilə canlandırmaq həqiqətən də çətindir. Cəmiyyətin sağlam özəyi, gələcəyi, köməyə ehtiyac duyan kövrək zümrəsi olan uşaqlar həyatımızın mənası, ailəmizin sevinci, fərəhidir. Hər bir evin, xoşbəxt ailənin ən böyük zinəti, dəyərli sərvəti məhz övladıdır. Uşaq səsi gələn ev nə qədər xoş-xürrəmdirsə, bundan məhrum olan ocaq bir o qədər soyuq və cansıxıcıdır. Uşaqların sosial-mənəvi ehtiyaclarını təmin etmək, onları müstəqil həyata ləyaqətli vətəndaş kimi hazırlamaq, cəmiyyətdə yerini tapmasına yardımçı olmaq hər bir valideyinin ən böyük arzusudur. Elə bu arzu ilə hər bir azərbaycanlı uşaqların sabahı naminə səylə çalışır, min bir zəhmətə qatlaşır. Böyüdüb boya-başa çatdırdığı övladlarının müstəqil həyatdakı ilk uğurunu görəndə isə qəlbi sevinc və fərəh hissi ilə döyünür, çəkdiyi zəhmətin hədər getmədiyinə sevinir. Azərbaycanda uşaqlara olan bu həssas və qayğıkeş münasibət ailə hüdudları ilə məhdudlaşmır, bütövlükdə cəmiyyəti əhatə edir. Əbəs yerə *"uşaqlar gələcəyimizdir"* deyilmir. Bu gün hər birimizin isti

ocağında böyüyüb boya-başa çatan körpələr sabah cəmiyyətin simasını müəyyən edəcək, dövlətin gələcəyinə görə məsuliyyət daşıyacaqlar. Deməli, vətəndaş olaraq hər birimiz Azərbaycanın gələcəyi üçün məsuliyyətimizi dərk etməli, uşaqları layiqli və kamil bir insan kimi yetişdirmək üçün əlimizdən gələni etməliyik. Bu hədəfə aparan yol isə hər bir insanın xatirəsində silinməz izlər buraxan məktəb illərindən başlayır. Dərs ilinin sonuncu aylarına təsadüf edən "Əlifba bayramı" mərasimi də təkcə uşaqlara deyil, onların müəllim, valideyinləri və yaxınları üçün də əlamətdar gündür. Bu bayram məktəb həyatına ilk pillə, ilk çağırış səsidir. Çünki min bir zəhmətlə boya-başa çatdırdıqları balalar uşaqlıq və bağça həyatına vida edərək məktəb həyatına qədəm qoymuşlar. Uşaqların hər birinin çöhrəsində sevinc və fərəh hissi ilə yanaşı, həm də gələcəyə-məktəb illərinə aparan yolun xoş təlaşı duyulur. Bu bayram məktəb illərinə, elmə yiyələnmək və bilgilənməyə gedən yolun başlanğıcıdır. İnsan hər bir yolun zirvəsinə çatdıqda belə yolun ilk başlanğıcı, o ilk cığır, o ömür yolu daim xatırlanır. Hər birimiz tale səhifəmizi vərəqlədikcə yenidən o anlara, ilk məktəb illərinə qayıdır, onun istisini, hərarətini xəfifcə duyuruq. Saflığı, təmizliyi qədər də özəlliyi və gözəlliyi ilə yaddaşlardan silinməyən bu əlamətdar bayram olan bilik bayramı insan həyatının ən unudulmaz, kövrək anlarına çevrilir. Hər bir məktəblinin həyatında yalnız bircə dəfə olan bu bayramda nələr yaşanmır... Məktəbdə "*salam, doğma məktəb*" deyərək çalınan o ilk zəng onların həyatında yeni səhifələr açır, bilik, elm, təhsil-təlim dolu bir səhifə... Aydınlığa gedən yol isə elm ocağından, məktəbdən keçir. Məhz buna görədir ki, o illər bizə çox əzizdir ki, biz o illəri xatırlayanda qəlbimiz sevinclə dolur, çöhrəmiz sevincə qərq olur. Bu əlamətdar günü bütün məktəblilər, onların müəllimləri və valideynləri intizarla, həyacanla gözləyirlər. Hər bir məktəblinin həyatında yalnız bircə dəfə olan bu bayramda

nələr yaşanmır.  Bu yadda qalan günü bütün birincilər, onların müəllimləri və valideynləri intizarla, həyacanla gözləyirlər. İnanırıq ki, bu ilk zənglə  gələcəyə ümidlə baxan, böyük arzulara gedən məktəblilər həm məktəb illərində, həm həyat pillələrində böyük uğurlar əldə edəcəklər. Birinci sinfi başa vuran uşaq üçün əlifba kitabı dünyanın ən gözəl kitabıdır. Bu kitab bütün elmlərin əvvəli, bütün sirlərin açarıdır. Biz də məktəb həyatına yenicə qədəm basmış gül üzlü balaları bu gözəl bilik bayramı,  "Əlifba bayramı" münsasibəti ilə təbrik edirik. Bu münasibətlə yazdığımız vəsait iki hissədən ibarətdir. I hissə  "Ana dilim-can dilim", ikinci hissə isə "Böyük uğura aparan yol-Əlifba" adlanır.

## Biliyə aparan yol-Əlifba

Hələ XII əsrdə dahi Nizami Gəncəvi demişdir: "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz". Yəni bu elmlə məşğul olan insanın nə qədər dəyərli olduğunu, onun bəşəriyyət, cəmiyyət  və özü üçün nə qədər faydalı olduğunu göstərir. Əlifba sanki qaranlıqdan işığa gedən bir yoldur. Əlifbanı oxuyub qurtarmaq elə qaranlıqdan işığa çıxmaqdır. Yəni dünənə qədər ətraf mühit onun üçün qaranlıq, sehrli, dərk edilməz bir aləm idisə, bu gün o aydın sabahlara yol alır deməkdir. Hər bir uşaq ilk hərfləri öyrənən zaman müasir dövrümüzdə küçəyə, gəzintiyə gedərkən yolda mağazaların, afişaların, binaların üzərindəki yazını oxuya bilir. Dünənə qədər onlara mənasız, anlamsız cızma-qaradan ibarət bu yazının nə olduğunu oxuyur, dərk edir və sevinirlər. Bu hadisə uşaqlar qədər valideyinlərin, yaxınların sevincinə səbəb olur.  O, yavaş-yavaş dünyada baş verən hadisələri anlamağa başlayır, ətraf mühiti görür. Demək ki, uşaq inkişaf etməyə, formalaşmağa başlayır. Lap qədim zamanlardan mollalar və mirzələrin  yanına dərs almağa gedən, ondan hərf öyrənən uşaqlar Əlifbanı öyrənib

bitirən zaman onların bu uğuru ailədə yaxınları və mollaxanada müəllimləri tərəfindən sevinclə qarşılanır, əsl bayrama səbəb olardı. Müəllimlərin də sevinci ən az tələbəsi qədər çox olardı. Hələ o vaxtlar bu əlamətdar gün qeyd olunar, müəllimə hədiyyələr alınardı. Şagirdin evində və məktəbdə bayram bu günümüzədək aktuallığını qoruyur. Elmin yeni-yeni inkişaf etdiyi bir dövrdə əlifbanı öyrənməyə bu qədər qiymət verilirdisə, günümüz XXI əsrdir və biz müasir dövrün insanlarıyıq. Buna görə də bu nöqteyi nəzərdən baxdıqda bu gün əlifbanı bitirən, elmin hələ ilk pilləsində dayanan hər bir uşaq bilik əldə edir, daha çox uğur qazanır. Bu günümüz də eynilə keçmişdə olduğu kimi bu gözəl uğuru bayram kimi qeyd edir. Belə bir fikir var ki, "Düşmən qarşısında əyilməyən baş şagird qarşısında əyilir". Yəni eyni vərəqə, kitaba şagird və müəllim eyni anda əyilir. Müəllimin şagirdə olan sevgisi və təmannasız elmə yiyələndirmə istəyi müəllimi də elə o şagird yaşda edir. Şagird də eyni işi gördüyü üçün, müəllimin ona verdiyi biliyə görə, ona olan qayğısına və gördüyü işdən aldığı həzzə görə müəllimi sevir. Əslində onlar eyni məqsədə xidmət edirlər. Deməli, müəllimin əməyinə verilən qiymətlər əvəzsiz və yerindədir. Müəllimə olan dəyər hər zaman diqqətəlayiqdir. Ulu öndər Heydər Əliyev də öz çıxışlarında dəfələrlə müəllim əməyini yüksək qiymətləndirmişdir. Dahi maarifçi H. Zərdabi və digər görkəmli şəxsiyyətlər müəllimin cəmiyyətdəki rolunun əvəzsiz olduğunu dönə-dönə vurğulamışlar. Hələ VI əsrdə islam peyğəmbəri həzrəti Məhəmməd demişdir: "Hər kim mənə bir hərf öyrətsə, mən onun qırx il qulu olaram". Bu peyğəmbərimizin elmə verdiyi çox böyük qiymət idi. Yəni hər bir elmlə məşğul olan adam bəşəriyyət, ətraf və özü üçün bir o qədər faydalı ola bilir. Məhz bunun üçün deyirlər ki, alimim bir damla mürəkkəbi şəhidin qanından üstündür. Şəhidlər bəşəriyyətin, bütün insanların əzizi, bütün insanlığın

müqəddəsidir. Şəhidlik elə bir yüksək zirvədir ki, hər insan övladı o zirvəyə yüksələ bilməz! Bununla belə alimin bir damla mürəkkəbi şəhidin qanından yüksəkdə dayanır. Çünki alim bütün bəşəriyyətin, şəhid isə dövlətinin xilaskarıdır. Bu mənada hər bir əlifbanı qurtaran, elmə yiyələnən şagird, vətəndaş gələcəyin qurucusu, zülmətdən nura doğru irəliləyən ziyalıdır, şəxsiyyətdir. Filosof Aristotelin müdrik fikirlərini qeyd etmək istərdim: "Valideynlərim məni göydən yerə endirdi, müəllimlərim isə məni yerdən göyə qaldırdı". Mən hesab edirəm ki, müəllimə həsr olunan hədsiz şeirlər, iri məzmunlu əsərlər, habelə rəsm əsərləri belə onun əməyini, çəkdiyi cəfanı və onun gələcəyə yandırdığı işığı qədərincə vəsf etməyib, edə də bilməz. Bu yerdə qələm də, fırça da aciz qalar.

Qaranlıqdan işığa çıxmaq üçün dünyada,
Bərk-bərk tutub gedirəm müəllimin əlindən.

Müəllim əməyindən bəhs edən bir digər şeiri xatırlayaq:

Ey hörmətli müəllim,
Hər könüldə yerin var.
Hər kənddə, hər şəhərdə,
Sənin meyvələrin var.

Əkdiyin ağacların
Gülü-çiçəyi solmaz.
Dünyada sənin qədər
Varlı bağban tapılmaz.

Bu mənada, müəllimlərin əməyi yüksəkdir, müəllimlərin gördüyü iş şərəflidir, müqəddəsdir və gələcəyimizin qurucusu, yaradıcısı olan hər bir şəxs Əlifbadan həyata doğru addımlamağa başlayır. Buna görə də Əlifbanın başlanması və sona çatması hər bir ailəyə sevinc gətirir. Çünki onun övladı elmə doğru gedir. Elm isə insanları cəhalətdən uzaqlaşdırır,

düzgün yola səsləyir, insan həyatını zənginləşdirir. Məhz buna görə də, hər bir ailədə, məktəbdə, bütövlükdə elm ocaqlarında Əlifbanın sona çatması, bitməsi "Əlifba" bayramı kimi qeyd olunur, şərəflə, xoş hisslərlə, bayram əhval-ruhiyyəsi ilə keçirilir.

Hər bir alimin, görkəmli şəxsiyyətlərin, tarixə iz qoymuş sərkərdələrin, elmə yeni-yeni töhfələr vermiş bilicilərin yolu məhz ilk olaraq Əlifbadan keçir. Bu mənada Əlifbanı bütün elmlərin qapısı adlandıra bilərik. Bəzən də hansısa bir şairin gözündə Əlifba hərflərin yuvası hesab olunur.

Hərflərin yuvası, Əlifba,
İsti ana qucağı, Əlifba...

"Əlifba bayramı" ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər. Bunlardan "Mənim hərfli dünyam","Qaranlıqdan işığa", "Əlifbanı öyrəndim", "Əlifba-müdrik babam", "Əlifba dünyam mənim", "Hərflərin izi ilə", "Göydən üç alma düşdü", "Hərf öyrət mənə, müəllim", "Biliyə aparan yol-Əlifba", "Sən mənimsən Əlifba", "Böyük arzuya gedən yol", "Mən məktəbə gedirəm", "Hərflərin söz çələngi", "Gəl əlifba oxuyaq...", "Rəngə boyanan dünyam", "Elmə açılan pəncərə-Əlifba", "O ağ saçların ömrümə nurdur, həyat yolunda mənə uğurdur", "Əlifbasız bilik yox..." "Ən sevimli dostumsan-Əlifbam" və s. misal göstərmək olar. Bununla yanaşı ayrı-ayrı illərdə nəşr olunmuş Əlifba kitabları sərgidə öz yerini alır. Müxtəlif ədiblərin Əlifba haqqında yazdığı kitablar, materiallar da sərgidə nümayiş olunur. Görkəmli insanların biliklə bağlı söylədikləri kəlamlar və şeir parçaları da sərgidə öz yerini alır.




Səmağül Əliyeva


Solmaz Amanova
Turan Hüseynova
Aygün Ağayeva
Solmaz Məhərrəmova
ƏLİFBA
2


Qəşəm İSABƏYLİ
ƏLİFBA
KROSSVORD


Gülarə Munis
ANA DİLİM -
CAN DİLİM


Bapbalaca
Sevinc Nuruqızı
ƏLİFBA


Səmağül Əliyeva
Rəqəmlərin
sehrli dünyası


RAFİQ YUSİFOĞLU
BÖYÜK ARZUYA
GEDƏN YOL


GÜLARƏ MUNİS
GÖYDƏN ALMA
DÜŞMƏDİ
(nağıllar)

## Görkəmli şəxsiyyətlərin elm, bilik və müəllim haqqında söylədikləri:

Hər birimizdə müəllimlərin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbrlə bizə öyrətmiş və öyrədir. Gələcək gənclərin, gənclər isə müəllimlərin əsərləridir.

**Heydər Əliyev,**
*Ulu öndər*

Müəllim yeganə sənətkardır ki, yaratdığı əsərin altında onun imzası yoxdur.

**M. K. Atatürk,**
*Türk Cümhuriyyətinin qurucusu*

Əgər məndən soruşsalar ki, ən şərəfli sənət hansıdır, mən o zaman iftixarla belə deyərdim: Müəllimlik.

**H.Zərdabi,**
*Azərbaycan mətbuatının banisi*

Hər xalqın tərəqqi qapısı məktəbdir və hər millətin tərəqqi tapması xalq müəllimlərinə bağlıdır.

**N.Nərimanov,**
*Dramaturq*

Müəllimin evi kitabxanadır, dövləti kiçik şagirdləridir, mükəlləfiyyatı qara məktəb mizləridir. Səsi və nəğməsi şagirdlərin sədasıdır, istirahəti dəftərlərin təchihi, qazancı isə millətin məhəbbət və etimadıdır.

**S.M. Qənizadə,**
*Maarifçi*

Biliyə doğru aparan yeganə yol fəaliyyətdir.

**B.Şou,**
*İngilis yazıçısı*

Müəllim öz peşəsini məhəbbətlə sevən aktyor, sənətkar olmalıdır.

**A.P.Çexov,**
*Rus yazıçısı*

Elm əqidəli olmaq üçündür, dünya malı yığmaq üçün deyil.

**Sədi Şirazi,**
*Fars şairi*

İnsan güc ilə yox, tez-tez mütailə etməklə ağıllanır.

**C.Bruno,**
*İtalyan alimi*

Elm həqiqətin inkişaf etdiyi canlı orqanizmdir.

**A.Kertsen,**
*Rus yazıçısı*

Hər şeyi bilmək, hər şeyi oxumaq! Nə qədər çox bilsən, o qədər qüvvətli olarsan.

**M.Qorki,**
*Rus yazıçısı*

Müəllimlik ən çətin və ən məsuliyyətli peşədir. O, gələcəyi yaradır.

**Q.Bereqovoy,**
*Kosmonavt*

O günü, yaxud o saatı bədbəxt say ki, onlarda heç bir şey öyrənməmisən və öz təhsilinə heç nə əlavə etməmisən.

Müəllim şüa saçan günəşdir.

**Y.Komenski,**
*Çex yazıçısı*

Düzgün təlim-tərbiyə bizim xoşbəxt qocalığımız, nöqsanlı təlim-tərbiyə isə Vətən qarşısında bizim dərdimiz, göz yaşlarımız, günahlarımızdır”.

**A.S. Makarrenko,**
*Rus pedoqoqu*

## Əlifbanın tarixi

Əlifba ərəb sözü olub-insan danışığındakı hər bir səsin qrafik xətlə qeydləri sistemi, hərflərin müəyyən qayda ilə düzülüşüdür. Əlifba sözü ərəb dilindən alınmadır. Ərəb dili əlifbasının birinci iki hərfinin adları əsasında düzəlmişdir. Yunanlarda əlifba anlamında alfavita işlənmişdir. Bu da yunan əlifbasının birinci iki hərfinin adının birləşməsidir: alfa; vita. Sonralar vita hərfinin adı dəyişərək beta olmuşdur və buradan da alfabeta (alfa+beta) termini meydana gəlmişdir. Hazırda dünyada 350-dən artıq müxtəlif əlifbadan istifadə olunur.

Türk xalqlarının qədim əlifbası run əlifbasıdır. Run və oqamik yazılarından bir sıra alman xalqları, o cümlədən anqlosakslar və vikinqlər istifadə etmişlər. Türk run əlifbasının kökü həmin əlifbalardan gəlmişdir. Qədim run yazılı abidələri bizim eranın III əsrinə aid edilir. Run yazıları bucaqlı yazı formasına malikdir, onun işarələri daha çox düz xətt parçalarından istifadə əsasında düzəlmişdir. Dairəvi və oval şəkilli elementlər bu yazılarda məhdud miqdardadır. Türk run

əlifbasının eramızın VII-XI əsrlərində istifadə olunması qeyd olunur.

1 avqust Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günüdür. Türk yazı tarixi uyğurların əlifbasıyla başlasa da, Azərbaycan dilinin yazılması ərəb əlifbasının bir variantı ilə başlanıb. Səlcuq və osmanlı Türkləri X əsrdən başlayaraq ərəb əlifbasını əsas tutmuş və ərəb-fars əlifbası vasitəsilə çoxlu əsərlər yaratmışlar. Ərəb əlifbası Azərbaycan dilinə kamilən uyğun olmasa da, keçmiş dövrlərdə bu əlifba vasitəsilə çox sayda dəyərli ədəbi və elmi əsərlər yaradılmışdır. Cənubi Azərbaycanda isə bu gün də azərbaycanlılar təkcə fars dilində təhsil aldıqlarına görə ərəb əlifbasını öyrənirlər. Azərbaycan dilində yazı 1929-cu ilə kimi ərəb qrafikası ilə aparılmışdır. 1922-1939-cu illərdə latın qrafikalı əlifba üzrə (1929-cu ilə kimi ərəb əlifbası ilə paralel olaraq), 1939-1991-ci illərdə kiril qrafikası üzrə, 1991-ci ildən başlayaraq yenidən latın qrafikası üzrə aparılmışdır.

Məktəblilərin "Əlifba bayramı" münasibəti ilə əlaqədar olaraq məktəblərlə yanaşı uşaq kitabxanalarında da bu mövzuda tədbirlər keçirilə bilər. *("Əlifba" bayramı" tədbirində Sevinc Nuru qızının "Bapbalaca Əlifba", Aygün Balın "Meşədə Əlifba", Səmagül Əliyevanın "Hərflərin söz çələngi", və "Rəqəmlərin sehrli dünyası" adlı kitabları və Rafiq Yusifoğlunun "Böyük arzuya gedən yol" adlı kitabından istifadə oluna bilər).* Bunun üçün müxtəlif adda məktəbin I sinif şagirdləri kitabxanaya dəvət olunur. Onlar kitabxananın "nağıl otağı" nda bir neçə nağıla tamaşa edirlər. Nağıl otağı müxtəlif nağıl persanajlarının maketləri ilə, eyni zamanda müxtəlif əşyalarla bəzədilir. *Kitabxanaçı uşaqları bu gözəl gün münasibəti ilə təbrik etdikdən sonra öz sözlərinə* Bəxtiyar Vahabzadənin "*Əziz bayram" adlı şeiri ilə başlayır:*

*Kitabxanaçı:* Gəl, əziz bayram,
Görüşək yenə.
Gül-çiçək səpim
Qədəmlərinə.
Böyükdür adın,
Böyükdür şanın.
Sənsən bağbanı
Bu gülüstanın!

"Nağıl dünyası... Bütün uşaqların çox sevdiyi bir dünya. Bu dünyada nələr yoxdur?.. Uşaqların sevinci, marağı, yeri gəlsə dəcəlliyi, təbiət hadisələri, hətta Günəşin şüaları. Uşaqların nağıl dünyasında hər şeyə rast gəlmək olar. Orada hər şey canlıdır, orada hər şey danışa bilir, hər şey sevinə bilir, hər şey gəzə bilir. Qəribəliklərlə dolu nağıl dünyasında Günəşin şüası da özünə yer tapmışdı. Bu şüa meyvə bağlarını, bostanları gəzir, meyvələrə, tərəvəzlərə öz işığından pay verirdi. O həm də uşaqlar üçün nağıllar, tapmacalar, şeirlər yazan yazarlarının də qələminin üzərinə düşürdü. Bundan onların xəbərləri yox idi. Axı onlar uşaqları yaxşı yazılarla sevindirməklə məşğul idilər. Ancaq həmin yazarların nağıllara süzülən işıqlı kitabları onları oxuyan hər bir kiçik oxucunu aydınlandırır, onları zülmət gecədən nurlu səhərlərə çıxarırdı. Əziz uşaqlar, davamlı nağıl oxuyun, çünki dünyada nağıldan ləzzətli heç nə ola bilməz. Qoy nağıllara hopmuş o şüa öz hərarəti ilə sizləri daim isitsin".

*Kitabxanaçının sözlərindən sonra uşaqlar bir-birinin arxasınca gözəl nağıllara baxırlar. Nağıllar bitdikdən sonra kitabxanaçı uşaqlara baxılan nağıllar əsasında suallar verir. Uşaqların fikirlərini öyrənir və onlara qaranlıq qalan məqamlara aydınlıq gətirir. Uşaqlar müdriyyət tərəfindən müxtəlif nağıl kitabları ilə mükafatlandırılır.*

Hər bir insan şəxsiyyət kimi formalaşdığı dövrlərə bir çox uğur əldə edə-edə çatır. Onun ilk uğuru isə elmə yiyələnmək, hərfləri öyrənib kitab oxumaq, aydınlığa çıraq tutmasıdır. Bu mənada "Əlifba"nı öyrənmək ilk uğur olmaqla yanaşı digər uğurlara təkan, ilkin mərhələdir. Uşaqların "Əlifba" nı bitirmələrini bayram etməsi çox yerində və sevindirici haldır. Kitabxanalar hər bir uğurda uşaqlara ən ümdə kömək və dəstəkdir. Hər zaman məktəb və təhsil ocaqları ilə çiyin-çiyinə addımlayan, onlara qucaq açan kitabxanalar bu gözəl, əlamətdar gündə də uşaqları yalnız qoymur, gözəl tədbirlərlə onları sevindirir. Belə tədbirlərdən biri də *"Hərflərin söz çələngi"* adlanır. Tədbirə gələn məktəblilər kitabxananın oxu zalında öz yerlərini alırlar. Tədbir kiçik yaşlı məktəblilərin marağına uyğundur. Bu tədbir uşaqları sevindirməklə bərabər onları düşündürməyə, idrak fəallığına sövq və vadar edir. Orada təbiətdəki canlılar: heyvanlar, quşlar, bitkilər, ağaclar və s. şəxsləndirilməklə öz xarakterləri barədə fikirlərini bildirirlər. Müxtəlif əşyaların adlarını bildirən sözlərdən istifadə olunmaqla kiçikyaşlı məktəblilər axtarışa sövq olunur, sözlərdə buraxılmış hərfləri tapıb yerinə qoymaqla idrak fəallığına cəlb olunurlar. Bu an simvolik olaraq zəng səsləri eşidilir. Kitabxanaçı səhnəyə yaxınlaşaraq məktəbliləri şeirlə salamlayır:

*Kitabxanaçı:* Həyacandan gözümə
Yuxu getməyib gecə.
Birinci zəngdən ötrü
Ürəyim əsir necə!

Qəlbimizdə arzular,
Əlimizdə gül-çiçək.
Yolumuzu gözləyir
Məktəb nəhəng gəmi tək.

Məhəbbətlə izləyir
Bizi doğma baxışlar.
Əl edib yola salır
Qohumlar, dost-tanışlar.

Vuruldu birinci zəng,
Ta bizim nə qəmimiz.
Biliklər ölkəsinə
Yola düşür gəmimiz.

*Səhnəyə gəmi maketi gətirilir. Gəminin ilk "sərnişini" səhnəyə enir. O, hamının sevimli, doğma kitabı olan Əlifba kitabıdır. Uşaqlar onun gəlişindən məmnunluqlarını əl çalaraq bildirirlər. Əlifba kitabı səhnədə var-gəl edərək özünü tamaşaçılara təqdim edir:*

"Əlifba" dır mənim adım,
Savaddır mənim övladım.
Fərəh, sevinc bağışlaram,
Əlaçını alqışlaram.

Əlifba kitabı əlində böyük bir vərəq tutaraq uşaqlara göstərir. Vərəqdə "...lm..." yazılmışdır: İştirakçı səhnəyə yaxınlaşaraq mövzuya aid şeirini deyir:

Lm, lm
Oy, oy, ay aman!
Adım düşmür yadıma,
Çatın mənim dadıma.

Birincilər sözü gedən meyvəni tapmaq üçün düşünürlər və bunun alma olduğuna qərar verirlər və bir ağızdan meyvənin adını deyirlər. Əlifba gəmidən alma götürüb iştirakçılara göstərərək onların cavabının doğruluğunu təsdiqləyir. Əlifba

kitabı üzərində “...mud” yazılmış ikinci vərəqi birincilərə göstərir. İştirakçılardan biri yaxınlaşaraq bu mövzuya aid şeir deyir:

Aaaaa!
Nə olubdur adıma?
Salın mənim yadıma.
Kömək edin, uşaqlar,
Çatın mənim dadıma.

Birincilər bu meyvəni armud olduğunu tapırlar. Əlifba kitabı gəmiyə tərəf çevrilib armudu götürərək tamaşaçılara tərəf tutur. Daha sonra o üzərində “...lb...” yazılmış digər vərəqi birincilərə göstərir. İştirakçılar həmin meyvə haqqında şeir deyir:

...lb...lı, bıy!
Nə çatışmır adımda?
Dəyişməyib dadım da.
Hansı səsi itirdim
Bu gözəl soyadımda?

Birincilər söhbətin “albalı” dan getdiyini başa düşərək cavab verirlər. Daha sonra səhnəyə “A” hərfi geyimində iştirakçı yaxınlaşır və hər üç iştirakçıya üzünü tutaraq şeir deməyə başlayır:

Albalı! Armud! Alma!
Tezcə gəlin yanıma.
İtirdiniz “A” səsin,
Səsinizi tez kəsin!
Kömək edərəm sizə,
Adınız çıxar üzə.

Hər kəsin sevincinə səbəb olan səhnəcikdən sonra birincilər çoxlu sayda şeir deyir. Sonda birincilər və iştirakçılar mükafatlandırılır.

“Əlifba bayramı” müxtəlif səpkidə keçirilə bilər. Bunlardan birini sizlərə təqdim edirik: Uşaqlar bu gözəl günü-Əlifba bayramını məktəbin zalında qeyd edirlər. Zal tədbirə uyğun şəkildə bəzədilir. Qonaqların alqışından sonra musiqi səslənir. Uşaqlar iki-iki əl-ələ tutaraq Zülfiyyə Xanbabayevanın ifasında “Azərbaycan” mahnısının sədaları altında səhnəyə daxil olurlar. Müəllimin çıxışından sonra Azərbaycanın dövlət himni səsləndirilir. Aparıcılar səhnəyə yaxınlaşırlar.

I aparıcı: Ey əziz birincilər,
Bu gün bayramınızdır!
Sevinin siz, şənlənin,
Sizin bu haqqınızdır.

II aparıcı: Qoy səsiniz ucalsın
Səmalara hər zaman!
Üzünüzdən təbəssüm
Əskik olmasın bir an!

I aparıcı: Dəyərli qonaqlar, xoş gəlmisiniz. Hər kəsi birincilər adından salamalayıram. Bu gün biz calışacagıq ki, sizə maraqlı bir proqram təqdim edək.

II aparıcı: Gəlin birlikdə Cırtdanın səhnəciyinə baxaq.

*Nağıl qəhrəmanı Cırtdan gəlir. O çox qəmgindir. Onun əlində kitabın üzü var. Görəsən o niyə bikefdir?*

*Çırtdan gələrkən Dədə Qorqudla rastlaşır.*

Dədə Qorqud: Cırtdan, salam !

Cırtdan: - Salam, baba !

Dədə Qorqud:-Necəsən haradan gəlirsən? Əlindəki nədir, mənim balam? Niyə bikefsən?

Cırtdan:- Baba, yaxşıyam, əlimdəki də Azərbaycan dili kitabıdır, amma kitabın üz qabığıdır.

Dədə Qorqud :- Niyə mənim balam?

Cırtdan: -Mən sentyabr ayında hərfləri uşaqlara verdim ki, onlar öz Azərbaycan dilində oxuyub yazmağı öyrənsinlər. Cunki, düşmən hər bir varlığımızı oğurlayıb, özünküləşdirmək istəyirlər.
Dədə Qorqud: -Halal olsun sənə, mənim balam, biz öz dilimizi unutmamalıyıq, qorumalıyıq. Bəs indi nə etmək fikrindəsən? Birdən düşmən yenidən cəhd edər ki, oğurluq etsin. Axı oğurluq onların adətidir....
Cırtdan: -Yox, baba, biz imkan verməyəcəyik, bilirsiniz, usaqlarımız öz hərflərimizi sevə-sevə öyrəniblər. İndi mən onları dinləyəcəyəm və hərflərimizi saxlayacagam ki, gələcək nəsilimiz də hərflərimizi öyrənsinlər...
Baba: -Sənə uğur olsun, mənim balam, mən uşaqlarımıza da, sənə də inanıram. Hələlik, mən gedim. Yolçu yolda gərək deyiblər. Sən öz axtarışlarını et!
*(Dədə Qorqud səhnədən gedir).*
Cırtdan : Ay uşaqlar, hardasınız?
*Uşaqlar yaxalarında hərflər Cırtdana yaxınlaşırlar və sıraya düzülürlər.*
*(Cırtdan hərflərə aid şeirlər deyən uşaqları dinlədikcə hərfləri onlardan alır və kitabın arasına qoyur.)*
Cırtdan deyir: Otuz iki hərfsiniz.
Hərənizin öz adı var.
Sizsiz yaratmaq olmaz
Qalın qalın kitablar..
I aparıcı: Dəyərli qonaqlar, gəlin xalqımızın daş yaddaşından süzülüb gələn xalq mahnılarımızı dinləyək.
Birincilər “Sarı gəlin” xalq mahnısını ifa edirlər.

II aparıcı: Cırtdan, deyəsən hərflər mübahisə edirlər?
*Yaxasından hərf asılan altı uşaq səhnəyə yaxınlaşıb* mübahisə etməyə başlayırlar.

*Ə hərfi:* Mən əməyəm.

*L hərfi:* Mən də qızıl laləyəm,
Hər bir işə köməyəm.
Çağlayan şəlaləyəm
İnsanlara gərəyəm.
Çəmənlərə bəzəyəm.
Birinci olmalıyam,
Birinci olmalıyam.

*İ hərfi:* Mən incəyəm.

*F hərfi:* Mən də filəm,
Hərflər arasında
Meşədə ən böyüyəm.
Mirvariyəm, inciyəm.
Gəlin siz dalaşmayın
Birinci olmalıyam.
Birinci olmalıyam.

*B hərfi:* Mən buğdayam.

*A hərfi:* A-yam A-yam A-yam mən.
Nə olsun ki xırdayam?
Şəfəq saçan Ayam mən.
Süfrədə daim varam.
Dalaşmayın!
Sizə baxıb utandım.

Birinci olmalıyam
Yerimi sona saldım.

II aparıcı: Bax beləcə, altı hərf
Dalaşdılar, küsüşdülər ,
Xeyli fikirləşdilər,
Axırda birləşdilər.

*Altı hərf bir arada şeiri deməyə başlayırlar.*

Tək qalanda səsik biz.
Fikirləşəndə sozük biz.
Kitablara aparan
Cığırıq biz, izik biz.

I aparıcı: Ay uşaqlar, bəs bu bir il ərzində riyaziyyatdan nələr öyrənmisiniz ?

*Uşaqlar səhnədə düzülürlər və rəqəmlərə aid şeirlər söyləyirlər.*
*İlk olaraq bir rəqəmi öz şeirinə başlayır.*

Baxın təkcə ayağam,
Rəqəmlərə dayağam.
Təkliyimə baxmayın,
Mən yamanca qoçağam...

*Sonra ikinci, üçüncü və digər rəqəmlər də öz şeirini deyirlər.*

Təkliyi heç sevmirəm,
Həmişə cüt gəzirəm.
Tək ədədə bir vahid
Artırıb düzəlirəm...

Cərgədə var öz yerim,
Sizə yerimi deyim.
Məndən əvvəl ikidi,
Sonra yer mənimkidi...

I aparıcı: Gəlin indi də birincilərin ifasında qədim xalq oyunu olan “Yallı” rəqsinə baxaq.
II aparıcı: Uşaqlar, gəlin tapmaca oyunu keçirək. Görək kim tapmacaların açmasını biləcək? Razısınızmı ?
*Uşaqlar sevinclə razılıq etdikdən sonra aparıcı tapmacalara keçid alır.*

Ləyəndə ay ləyəndə
Güllər boynun əyəndə.
Yeyilər kal vaxtında
Yemək olmaz dəyəndə. (xiyar)

I aparıcı: Ağ yerə toxum səpərlər. (yazı)

II aparıcı: Altı bulaq içələr,
Üstü zəmi biçərlər. ( qoyun)

I aparıcı: O nədir ki, içində qışdır, çölündə bahar. ( soyuducu)

II aparıcı: Ağac başında al yanaqlı qız. (alma)

I aparıcı: İndi isə əziz qonaqlar, gəlin böyük şair Abdulla Şaiqin “Məktəbə get, dərs oxu” adlı şeiri əsasında hazırlanmış səhnəciyə tamaşa edək.
*Səhnədə yatağından hələ qalxmamış şagird və onu xoş sözlərlə oyadıb məktəbə yola salmaq istəyən ana var. Ana oğlunu sığallayaraq sözlərinə başlayır:*

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol, dur get məktəbə,
Sarıl elmə, ədəbə.

Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.
Al şəfəqli günəş var,
Pəncərədən parıldar.

Qalx ki, hamı oyanmış,
Dünya nura boyanmış.
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.

*Bu sözləri eşidən məktəbli yataqdan qalxır və məktəbə yollanmağa hazırlaşır.*

II aparıcı: İndi isə gəlin “Əlifba” şeirini dinləyək:

Mənim ilk kitabım mənim əlifbam,
Mənim güllü bağım, ətirli bağım.
Bu gün bayramındır, əziz günündür,
Bu gun nəgməmiz də sənin ücündür.
İlk bələdcim oldun tutdun əlimdən
Mənə xəbər verdin ana dilimdən.
Tarixdən danışdın, dünyanı gəzdin
Dedin ki, hər şeydən gözəldir Vətən
Sən Günəş kimi işıq saçırsan
Bağlı qapıları bizə açırsan.
Mənim əziz dostum, mənim əlifbam
Bizimlə hər zaman bir addımla sən.!!
Mən sevirəm Azərbaycan elini,
Öyrənmişəm onun şirin dilini.
Bu dil əcdadlarımızın həyat səsidir
Odlar yurdumuzun od nəfəsidir.

I aparıcı: Əziz birincilər, bu gün sizin görüşünüzə gələn qonaqlar arasında Tıq-Tıq Xanım da vardır. Gəlin onu səhnəmizə dəvət edək.

*Tıq-Tıq Xanım digər nağıl pesanajları ilə birgə səhnəyə daxil olur və uşaqlarla maraqlı söhbətlər edir, yarışmalar keçirir.Bu zaman o, Qəşəm İsabəylinin "Əlifba krossvord"u kitabından istifaddə edir.*

II aparıcı: -Ana Vətən!.. Gözəl sözdür, çünki, bu sözü hamımız sevə-sevə dilimizə gətiririk.

Ana, qəlbimizin sevinci
Sevimli əziz qadın.
Bizim ana vətənlə
Qoşa çəkilir adın.

I aparıcı: Vətən bizim ucun əzizdir biz vətəni sevməliyik. Vətən nədir?.. Sualına tam və qısa olaraq deyirik-əgər bu torpağın suyunu, havasını uduruqsa, gözəl meşələrini, səfalı daglarını, bağlarını və geniş düzlərini seyr ediriksə, onun qoynunda doğulub boy atırıqsa, bu bizim vətəndir. Vətən onu sevmək, müqəddəs bilmək, lazım gəldikdə isə onu qorumaq üçün düşünmədən özünü fəda edə bilməkdir.

I aparıcı: Vətənə aid şeirlər çoxdur. Şeirlər bizim doğma yurdumuzu vəsf edir, onu tərənnüm edir. Biz vətənimizə olan məhəbbətimizi şeirlərlə də dilə gətiririk. Gəlin bu mövzuda şeirlər dinləyək:

Vətən sənin övladınam,
Azərbaycan balasıyam,
Gələcəyin aynasıyam.
Bağçamızın bar səsiyəm,
Ümid verən işığıyam
Mən Azərbaycanlıyam.

II aparıcı: Vətən anlayışı insanın həyatında böyük yer tutur. İnsan vətənin doğmalığını, onun təkrar olunmazlığını və ya sadəcə olaraq “Ana vətən” kəlməsini insan qəlbində yaratdığı istiliyi duyur. Biz hər birimiz ana və atamızın dilindən “vətən anadır” kəlməsini eşidirik. Çünki biz bu torpaqda doğulur, yaşayırıqsa, bu torpağın havasını udub, suyunu içiriksə, bizə bu torpaq həyat veribsə, deməli biz bu torpağın vətəndaşıyıq, bu torpağın oğullari və qızlarıyıq. Bütün mənliyimizlə ana vətənimizə-Azərbaycanımıza borcluyuq.
I aparıcı: Hər bir insan yurduna sadiq və layiq vətəndaş olmağı üçün əlindən gələni əsirgəməməlidir. Biz hamımız Azərbaycan dövlətinin vətəndaşıyıq, biz Azərbaycanımızı çiyinlərimizə qaldırıb, işıqlı sabahlara, aydın gələcəyə aparmalıyıq. Buna aparan yol isə elmdir.
II aparıcı: Düşmənləri qəlbimizdəki vətən sevgisinin, vətən məhəbbətinin atəşi ilə məhv etməliyik. Torpaqlarımızı azad etmək, analarımızın gözundən yaşı silmək üçün, gecələr rahat yatmaq üçün, şəhidlərimizin qanını yerdə qoymamaq üçün vətənimizi sevməli, hər zaman onun keşiyində durmalıyıq.
I aparıcı: Dəyərli qonaqlar, sizi uşaqların ifasında “Cücələrim” rəqsinə baxmağa dəvət edirik.
*Tədbirin sonunda birincilərə hədiyyələr paylanılır.*

“Əlifba bayramı” ayrı-ayrı məktəblərdə müxtəlif mövzularda keçirilə bilər. Səhnə bəzədilir, birincilərin sevincinə səbəb olan nağıl kitabları, şəkillər, sevimli dərs ləvazimatları divardan asılır. Nağıl persanajlarından düzəldilən maketlər və nağıllarda əks olunan atributlar səhnədə yerləşdirilir. Qonaqlar və valideyinlər öz yerlərini alırlar. Böyük sevinclə, bəslədiyi ümidlərlə, qurduğu xəyallarla, ürəyində baş qaldıran arzularla övladının əlindən tutub məktəblərdə ilk zəngi səbirsizliklə gözləyən valideynlər, indi körpə balalarının əziz bayramına

yığışıblar. Böyük həyəcanla övladının özünü necə aparacağını, necə çıxış edəcəyini gözləyirlər. Budur, birincilər, hərflərlə, rəqəmlərlə, dərsliklərlə "silahlanmış" şəkildə əllərində dövlətimizin üçrəngli bayrağı, döşlərində "Əlifba" yazılmış lentlərlə, inamlı addımlarla addımlayaraq bayram iştirakçılarının qarşısına çıxırlar. Dövlət Himni oxunduqdan sonra tədbir başlanır.

İştirakçılardan biri bu günün, bilik bayramı gününün onlar üçün nə qədər əziz, gözlənilən və sevincli gün olduğunu qeyd edir və Əjdər Ağazadənin yazdığı "Sevimli bayramımız" adlı şeirini deyir:

Gəl-gəl sevimli bayram,
Çoxdan gözləyirik biz!
Sevinir gəlişindən
Fərəhlənən qəlbimiz.

Neçə mahnı öyrənib,
Neçə şəkil çəkmişik.
Neçə güllü-çiçəyi
Bağçamızda əkmişik.

Azad diyarımızda
Boy atırıq bəxtiyar.
Dünyanın hər yerində
Bizim dostlarımız var!

*Aparıcılar da alqış sədaları altında səhnəyə yaxınlaşıb qonaqları salamlayır və birincilərin sevinclərinə şərik olduqları üçün onlara təşəkkürlərini bildirdikdən sonra tədbirə keçid alırlar. Onlar birinciləri şeir deməyə dəvət edirlər. Dilimizin, Vətənimizin, bayrağımızın şərəfinə şeirlər səslənir.*

I iştirakçı: Bu üç rəngli bayrağım
Gözümün işığıdır.
Azadlıq yağışından
Doğan göy qurşağıdır...

II iştirakçı: Gün kimi yanar, sönməz,
Heç vaxt geriyə dönməz.
Qalxıbdır, daha enməz
Üçrəngli bayrağımız!..

III iştirakçı: Könlüm quşu qanad çalmaz,
Sənsiz bir an Azərbaycan!
Xoş günlərin getməz müdam
Xəyalımdan Azərbaycan....

*Şagirdlər, səslərdən, sözlərdən tutmuş hər bir dərsliyin elmi gücü haqqında, rəqəmlərin əhəmiyyətinə aid bir-birindən maraqlı çıxışlar edirlər. Sonra sıra "Nağıllar aləmində səyahət"ə verilir. Burada "Qırmızı papağ"ı, "Cırtdan"ı, "Qoğalı", heyvanlar tərəfindən aldadılmış canavarı, "Tıq-tıq xanım"ı, padşahın qarnını yırtmış xoruzu da görmək olardı.*

I aparıcı: Əziz birincilər, bu gün sizin görüşünüzə gələn qonaqların sayı olduqca çoxdur. Onlar həm nağıl qəhrəmanları, həm də sizin bu gündən sonra keçəcəyiniz, öyrənəcəyiniz dərs kitablarıdır. Onlar bir-bir sizi görməyə gələcəklər, ancaq istərdim ki, biz ilk olaraq sizin ən çox sevdiyiniz, fəxrlə əlinizə alıb oxuduğunuz "Əlifba" kitabını buraya dəvət edək. Əlifba-bütün elmlərə aparan yolların açarıdır. Əlifba məktəblə ilk görüşdür, ilk tanışlıqdır.

*İştirakçılardan biri səhnəyə yaxınlaşaraq Sabir Mustafanın "Salam, doğma məktəb" adlı şeirini deməyə bağlayır.*

Doğma məktəb qoynunda
Sevinirik ürəkdən.
Nurlu gözlərimizdir
Bir anadır, bir Vətən!

Babəklər, Koroğlular
Yurdunda doğulmuşuq!
Səadət göylərində
Şən, azad qaranquşuq!

Öyrənirik mərdliyi
Həzi, Ziya, Gəraydan!
Gəlir zəfər nəğməmiz
Nurlu günəşdən, aydan

Çətinlikdən qorxmuruq,
Biz hazırıq hər işə.
Gözəl bilik alırıq
Dərslərdən biz həmişə!

*Hər kəsin sevinc və alqışları ilə "Əlifba" kitabı səhnəyə daxil olur. İştirakçılardan biri qarşıya çıxıb üzünü Əlifbaya turaraq Kəmalə Əliyevanın qələmə aldığı* "Əlifba bayramı" şeirini deməyə başlayır.

Əlifba, ay əlifba,
Bu məclisə gəl qonaq.
Axı səni öyrənib,
Biz olmuşuq üzüağ.
Əlifba, ay əlifba,
Bizə arxa, dayaqsan.
Sən elmin zirvəsinə
Gedən yolda mayaksan.

Bu bayram da sənindir,
Bu "Əlifba bayramı".
Bu bilik bayramında
Gülüb, sevinir hamı.

*Bir neçə iştirakçı Əlifba kitabını dövrəyə alaraq bir ağızdan oxuyurlar:*

Sən mənim ilk kitabım,
Vətənim, yurdum, adım,
Vərəqlərin qanadım
Əlifbam, ay Əlifbam.

Nəqarət
Hərflərin yuvası Əlifbam,
Şirin ana laylası Əlifbam.

Mən bir körpə çiçəyəm,
Səndən su içəcəyəm.
Sənə and içəcəyəm
Əlifbam, ay Əlifbam.

*İştirakçılardan biri səhnəyə yaxınlaşaraq üzünü Əlifba kitabına tutub şeiri deməyə başlayır:*

Nədir, nədir Əlifba,
Səslərin işarəsi.
Bildiyimiz sözlərin
Yazılı nişanəsi.

Soruşsalar deyərik,
Kimdir, kimdir Əlifba.
Bilirik-ən birinci
Müəllimdir Əlifba.

Əlifbasız bilik yox,
Biliksiz də yüksəliş.
Əlifbadan başlanır
Hər böyük ağıllı iş.

*İkinci iştirakçı da eynilə üzünü Əlifba kitabına tutub şeir deməyə başlayır:*

"Əlifba" müdrik baba!
Qoy eşitsin uşaqlar.
Baxıb görsün uşaqlar.
Əlimdə bir kitab var,
Əlifba kitabıdır.

Əlifba kitabının
İşıqlı "A", "B" ləri
Çox ağıllı hərfləri,
Biliklərə qapıdır.

*Sonra növbə "Əlifba" ya gəlir.*

Əlifba kitabı qarşıya çıxıb sinəsini qabağa çəkir və kitabın səhifələrindən hərflər yarpaq-yarpaq düşür. İlk görünən "A" hərfi olur. O, səhnədə addımlayır. *(İştirakçının geyimi "A" hərfini xatırladır).* İştirakçılardan biri ona yaxınlaşaraq tamaşaçılara üz tutaraq deyir: "Həyat Əlifbadan başlayır. İlk hərfi "A"-Allahdır. Onun nə əvvəli, nə sonu vardır. Əlifba sırasıyla dünyanı, insanları yaradıbdır. Allahdan sonra bizi sevən anadır, başımızın tacıdır. "A"-Azərbaycan torpağımın müqəddəs adıdır. "A" üzünü çevirsə, amansız ayrılıqdır, "ah" dır, ağrıdır".

I aparıcı: Əziz birincilər, siz bilirsiniz nəyə görə “A” hərfi Əlifbanın ilk hərfidir?
Birincilər maraqlı sual qarşısında çaşğınlıqlarını gizlədə bilmədilər. Bir ağızdan səbəbini soruşdular.
II aparıcı: Əziz birincilər, gəlin elə isə sizlərə də, qonaqlara da maraqlı olan səhnəciyə tamaşa edək.
*İlk iştirakçı səhnəyə yaxınlaşaraq sözə başlayır:*
-Əhvalat belə oldu. Bir gün albalı kimi qırmızı dodaqları, alma kimi toppuş yanaqları olan balaca qız, rəngli kağızlardan bir səbət hərf kəsdi. Sonra yorulub yatdı. Hərflər onun yatdığını görüb tərpəndilər, hoppanıb səbətdən çıxmağa çalışdılar. Elə bu yerdə dava düşdü:
*Digər iştirakçılar səhnəyə yaxınlaşaraq ard-arda sözə başladılar.*
II iştirakçı: -Birinci mən düşəcəyəm.
III iştirakçı: -Yox, mən düşməliyəm.
Hərflər o qədər itələşdilər ki, yorulub əldən düşdülər. Hərəsi səbətin bir tərəfinə söykəndi. Qəflətən hərflərdən biri dedi:
II iştirakçı: Görəsən bura haradır?
III iştirakçı: -Bizi bura qız gətirib: Gəlin ondan soruşaq. Qız, ay qız, bura haradır?
I iştirakçı: Qız yatağından səsləndi.
IV iştirakçı: -Bunu bilməyə nə var ki: Azərbaycan!
*Hərflər xorla dedilər:*
- Azərbaycan... Deməli, Azərbaycan bizim vətənimizdir.
*Qız səsləndi:*
IV iştirakçı: - Əlbəttə... Mənim də vətənimdir.
Kimsə yerindən dedi:
V iştirakçı: Məncə səbətdən birinci A hərfi düşməlidir.
O birilər də onunla razılaşdılar:
*Digər iştirakçılar:*
-Bəli, Azərbaycanı çox sevdiyimiz üçün.

-Atamızı da...
-Anamızı da...
I iştirakçı: Hərflər bir-birinin boynuna çıxdı. A hərfi onlardan tuta-tuta lap hündürə qalxdı. Səbətdən yerə tullandı. Qız qaçıb gəldi. Onu götürdü, başını sığalladı.
IV iştirakçı: - Əlifbamın birinci hərfi... Xoş gəldin.
*Birincilər A hərfi ilə başlayan şeirlər, yanıltmac və atalar sözləri deməyə başladılar.*

İştirakçı: Armuda
Dırmaşdı Ayı.
Çıxıb göydə
Gördü Ayı.
Ay sevindi,
Ayı güldü.
Ayı Ayın
İşığında
Armud dərdi.
Armuddan
Aya göndərdi.
Armudların
Yaxşısını
Dərib yedi
Ayı Aya
"Sağ ol" dedi.

II iştirakçı: Bir yanağı ağ,
Biri qırmızı.
"Alma!"-desən də,
Aldım o qızı. (alma)

III iştirakçı: Ata, ata,
At alma.
Almanı
Atdan
Alma.

Daha sonra iştirakçılar Rafiq Yusifoğlunun “saitlər” adlı şeiri səhnələşdirdilər.

“A” nı lağa qoyaraq
“İ” dedi:
-Mən incəyəm.
Hərflər arasında
Mirvariyəm, inciyəm.
“E” də, “Ə” də incədi,
“Ö” də, “Ü” də incədi.
“İ” nin kobud sözündən
Qalın səslər incidi.
Elə bil “Əlifba” nın
Üstünə zülmət çökdü
Qoymadı dil-boğaza,
“İ” üyütdü, “İ” tökdü.
Dedi ki, sən qalınsan,
“O”da, “A” da qalındı.
“I” sizdən də betərdi.-
“A” küsdü,
“A” alındı.
Söylədi:
-“Əlifba” nın
İlkin səsi mənəm, mən.
Bil ki, bütün bütün səslərin
Sərkərdəsi mənəm, mən.
Nə olsun ki, incəsən,
Dostum, çəkmə özünü.

İlki mən, sonu mənəm
“Ana” , “Ata” sözünün.
Nə olsun ki, qalınam,
“A” yam, “A” yam, “A” yam mən.
Hər səs bir ulduzdusa,
Şəfəq saçan ayam mən.
Utan kobud sözündən,
Yana-yana qal indi.
“Ana” sözünə qalın
Deyən özü qalındı...

Tədbirin sonunda birincilər müəllimlərinə təşəkkürlərini bildirmək üçün, Kamil Mehdiyevin “Müəllimlərimizə” adlı şeirini ona hədiyyə etdilər.

Ana kimi sevərək,
Öyrətdiniz bizləri.
Biz də nəğmə deyərək,
Sevindirək sizləri.

Bizlər ana dilində,
Düzgün yazdıq, oxuduq.
Təzə hərf keçərək
Cümlələri oxuduq.

Toplamanı, çıxmanı,
Öyrətdiniz bizlərə.
İndi nələr desəniz,
Cavab verərik sizə.

Bizlər üstəgəlməni,
Sevərək öyrənmişik.
Alış-veriş edərkən
Ondan çox işlətmişik.

Təbiəti sevməyi
Siz öyrətdiniz bizə.
İndi qulluq edirik
Bağçadakı güllərə.

Çıxmır heç yadımızdan,
Dərsdə nəğmə oxuruq,
Musiqi dünyamıza
Sanki ilmə toxuruq.

Şəkillər də çəkirik,
Çəkilən şəkilləri,
Çiçəkləri, gülləri
Dibçəklərə əkirik.

Bizə siz öyrətdiniz
Səliqəli olmağı.
Kiçikəri çox sevib
Bir də hörmət qoymağı.

İndi gəlib bir yerə,
Sizə alqış söyləyək.
Sevindirib sizləri
Min-min uğur diləyək.

Tədbirin sonunda bir neçə nağıl, şeirlər deyilir, birincilər mükafatlandırılır.

Birincilərin "Əlifba bayramı" məktəblə yanaşı kitabxanada da keçirilə bilər. *"Meşədə Əlifba bayramı"* adlı tədbirin keçirilməsi üçün səhnə müxtəlif dekorasiyalarla bəzədilərək meşə təsviri yaradır. Müxtəlif növ bitkilər, eləcə də alaq otları, dərman bitkiləri, giləmeyvələr, kol bitkiləri, heyvanlar aləmi

uşaqların sevincinə və eyni zamanda marağına səbəb olur. İlk olaraq kitabxanaçı birinciləri və onların müəllim və doğmalarını bu əlamətdar gün münasibəti ilə təbrik edir. Birincilərin şeirlərini sevərək öyrəndiyi xalq şairi Səməd Vurğunun gözəl fikirlərini onlara çatdırır: "Əziz və sevimli nəvə-nəticələrim! Mən əsrlərin arxasından sənin parlaq çöhrəni, günəş qədər işıqlı taleyini-dünya cəmiyyəti vətəndaşının böyük taleyini görürəm. Mən xəyalən sənə can atır, səninlə bir addımlayıram, səninlə əl-ələ işləyirəm. Mən sənin xoşbəxt çöhrəndə, duru gözlərinin ziyasında bir doğmalıq, bir yaxınlıq görürəm. Mənə elə gəlir ki, yaşayıb-yaratmaqda davam edirəm, sənin timsalında özümü görürəm. Fəxr edirəm ki, sən öz ülvi fikirlərinlə, ideallarınla, arzu və istəklərinlə mənim davamımsan, mənim başladıqlarımı, tərənnüm etdiklərimi zənginləşdirirsən, inkişaf etdirirsən. Səninlə necə fəxr etməyim, əzizim, axı sən özün istiqbalsan, axı gələcək sənindir. Mən necə də xoşbəxtəm... Mənim fikrim, vüqarım, səni bərk-bərk öpürəm. Sənin böyük və xoşbəxt gələcəyini fikrən bağrıma basıram." *( Ulu baban Səməd Vurğun)*
*Sonra isə adı çəkilən meşə canlıları və bitkilər səhnəyə yaxınlaşaraq şeirlərini deməyə başlayırlar. İştirakçılar dedikləri şeirdəki obrazın xarici görünüşünə uyğun geyim geyinir. Uşaqlar səhnədə təmsil olunan obrazı (heyvan və bitkini) həmin andaca tanıyırlar.*

Ayı: Əlifbanı öyrəndim,
Böyüdüm addım-addım.
"A" hərfiylə başlayır,
Ayıdır mənim adım.

Bəbir: Dərsi pozmadı bəbir,
"B"-dan bayraq da qurdu.
Yeni dostlar tapdı o,
Bayquşla qoşa durdu.

Ceyran: Ceyran, cüyür söylədi:
Daha vurmayaq üzə.
"C"-la başlar canavar,
Niyə düşməndir bizə?

Çiyələk: Kolları mən bəzərəm,
Baxın, necə gözələm!
Çəhrayı paltarıma
Kiçik xallar düzərəm.
Yeyin məni, dadlıyam,
Giləmeyvə adlıyam.
Baş hərfim düşdü kolda,
Meşədə, ya da yolda.
Kömək edin, tapım mən,
Düzəlsin bütün cərgəm.

Beləliklə, 32 hərffin hər biri ilə başlayan heyvan və bitkilər bir-bir səhnəyə yaxınlaşaraq şeirlərini deyir. Sonra meşədə baş vermiş nağıllarımızdan "Qırmızıpapaq və canavar" , "Şəngülüm, Şüngülüm və Məngülüm" və s. nağıllar səhnələşdirilir. Səhnələşdirilən nağılın sonunda Qırmızıpapaq meşənin alma ağacından dərdiyi almaları birincilərə paylayır. Məktəblilər də, tapmaca, deyimlər və şeir töhfələri ilə nağıl qəhrəmanlarını sevindirirlər. İlk olaraq iştirakçılardan biri Mir Sabirin "Bilik bayramı" adlı şeirini deyir:

Hər işin, sənətin soyadı sənsən,
Talantın quş kimi qanadı sənsən,
Fikrin, düşüncənin həyatı sənsən ,
Biz səndən alırıq eşqi, ilhamı,
Ay bilik bayramı, bilik bayramı.
Sənin gəlişinlə sevinir ürək,

Elmin yolları da da açır gül-çiçək,
Körpə balalar da bu gün sevincək.
Həvəslə məktəbə yollanır hamı,
Ay bilik bayramı, bilik bayramı

"Qüvvət elmdədir, elmsiz heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz".
Varmı, bu sözlərə dünyada əzəz?
Nə gözəl söyləyib böyük Nizami,
Ay bilik bayramı, bilik bayramı.

İşıqlı ruhusan aqil insanın,
Nəsrəddin Tusinin, İbn Sinanın,
Neçə gözəl qızın, igid oğlanın,
Sənsən ən müqəddəs arzusu, kamı
Ay bilik bayramı, bilik bayramı.

*II iştirakçı da bir neçə "Deyimlər" söyləyərək hər kəsin alqışını qazanır.*

Oxuyuram ki, tərbiyələnim, öyrənirəm ki, tərbiyələndirim.

Kiçik yaşlı uşaqların özləri, hərəkətləri, mimikaları, oyunları nəciblik və zəriflik məktəbidir. Bu pulsuz və təmənnasız ümumdünya məktəbinin xidmətindən bəhrələnin.

Məktəb bəşəriyyətin övladı, təbiətin nəvəsidir.

*III iştirakçı daha bir maraqlı şeirlə, Rafiq Yusifolunun "Mən məktəbə gedirəm" şeirini söyləyir.*

Mən məktəbə gedirəm,
Təptəzə dostlarım var.
Çantamda dəftər, kitab,
Ürəyimdə arzular.

Mən məktəbə gedirəm,
Baxır hər yoldan ötən.
Övladların boy atır,
Gözlərin aydın, Vətən!

Mən məktəbə gedirəm,
Güc gəlib qollarıma.
Mənim ilk müəllimim
Göz dikib yollarıma.

Mən məktəbə gedirəm,
Sevinir, ellər gülür.
Qanadım yoxdur uçam,
Əlimdə güllər gülür.

Cəmiyyət həyatı çox mürəkkəb və çox cəhətlidir. Elə sahələr var ki, dar, məhdud çərçivəlidir. Təbii ki, söhbət təhsildən gedir. Təhsil qanunlarında bu və ya digər cəhətlər nəzərə alınaraq belə bir ümumiləşdirmə aparılmışdır: "Təhsil cəmiyyət və dövlətin inkişafının əsasında durmaqla strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsidir". Qədim yaşayış məskəni kimi dünyada tanınan müstəqil Azərbaycan əsrlərin dərin qatlarında yaranıb, formalaşmış təhsil sistemi ilə diqqət cəlb edir. Bəşər tarixinin bir hissəsi olan Azərbaycan elm, mədəniyyət sahələrində dünya şöhrəti qazanmış tarixi şəxsiyyətlərinin həyatı və irsi təsdiq edir ki, elm, mədəniyyət və iqtisadiyyatın yaranıb inkişaf etməsi, ümumilikdə xalqın intellektual fondunun formalaşmasındadır. Cəmiyyətimizə layiq insan ideallarımıza layiq vətəndaş yetirmək vəzifəsini qarşısına məqsəd qoyan müəllim, hər şeydən əvvəl, özü sənətinin məsuliyyətinin bütün ciddiyyətiylə dərk edən bir vətəndaşdır. Belə müəllimlərlə biz öyünür, fəxr edirik.

Müəllim unutmamalıdır ki, o, cəmiyyət üçün adi adam deyil insan, fərd deyil şəxsiyyət, nəfər deyil vətəndaş hazırlayır. Bu vətəndaşın həyatda tutacağı mövqeyə o da məsuldur. Müəllim öz gələcəyini də qarşısında əyləşən körpə balalarında görməlidir. Beləliklə, müəllim bu gün sabahımızı yaradır. Əgər cəmiyyəti nəhəng bir binaya bənzətsək, bu binanın bünövrəsini tikən müəllimlərdir. Bina bünövrəsindən lazımi səviyyədə tikilməsə, onun içinə və çölünə nə qədər bəzək-düzək vurulsa da, o bina gec-tez laxlamalıdır. Bünövrəni möhkəm quran vətəndaş müəllimlərə eşq olsun!

## Ədəbiyyat siyahısı

Bal A. Meşədə əlifba bayramı // Meşədə əlifba bayramı – Bakı : Qələm OFSET, 2007. - S. 72-107.

Əliyeva S. Hərflərin söz çələngi. – Bakı : Elm və təhsil, 2011, - 48 s.

Əliyeva S. Rəqəmlərin sehrli dünyası. – Bakı : Elm və təhsil, 2011. – 48 s.

Əlifba 2 : yazmağı və oxumağı öyrənirəm /Amanova S. və başq. – Bakı : Oskar, 2012. – 35 s.

İsabəyli Q. Əlifba – krossvord. – Bakı : Şirvannəşr, 1999. – 16 s.

Munis G. Ana dilim – can dilim. – Bakı : MBM, 2011. – 44 s.

Munis G. “Əlifba” kitabının nağılları // Göydən alma düşmədi : nağıllar. – Bakı : MBM, 2008. – S. 5 – 9.

Nuruqızı S. Bapbalaca əlifba. – Bakı : Aspoliqraf, 2010. – 196 s.

Yusifoğlu R. Böyük arzuya gedən yol. – Bakı : Göyərçinin kitabxanası, 2000. – 46 s.

**Əlifbadan həyata doğru**
**metodik vəsait**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:16
Çapa imzalanmışdır:04.05.2017
Tirajı:
Pulsuz